*MƏQALƏ*

**Vüsalə Nəbiyeva**
Dünya ədəbiyyatı və komparativistika şöbəsinin kiçik elmi işçisi
*vusala_nv@mail.ru*

264
1 (16) 2020



# Meri Stüartın həyat və yaradıcılıq yoluna bir nəzər

XX əsr ingilis ədəbiyyatında roman janrında yazılmış əsərlər əhəmiyyətli və diqqəti cəlb edən bir mövqeyə malikdir. Bu dövrdə ingilis ədəbiyyatında ərsəyə gətirilən romanlar həm məzmun, həm də məhsuldarlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, XX əsr ingilis ədəbiyyatında Cozef Konradın (1857-1924), Ceyms Coysun (1882-1941), Virciniya Vulfun (1882-1941) yazdığı romanlar qədər Meri Stüartın (1916-2014) da qələmə aldığı romanlar olduqca maraqlıdır. XX əsr məşhur ingilis yazıçısı, tarixi romanların və o cümlədən məşhur "Merlin" triologiyasının müəllifi Meri Florens Elinor Reynbov Stüart 17 sentyabr 1916-cı ildə Böyük Britaniyada, İngiltərədə Darem qraflığının Sanderlend şəhərində keşiş ailəsində anadan olub. Meri Stüart Yeni Zelandiyadan gəlmiş keşiş Frederik Reynbov ilə Meri Edit Mettyusun izdivacından dünyaya gəlmişdi.

Meri Stüartin ailəsinin maddi vəziyyətləri o qədər də ürəkaçan deyildi. Meri Stüart məktəbə getdiyi illərdə rəssam olmaq istəyirdi, lakin valideynləri, xüsusilə də anası qızının bu istəyinə qarşı çıxır. Anası Meri Stüarta Oksford, Kembric və Darem kimi ali məktəblərin birində təhsil almağı məsləhət görür. Meri ailənin maddi vəziyyyətini nəzərə alaraq Darem Universitetini seçir. Çünki o dövrdə Darem Universiteti tələbələrə digər Univesitetlərdən çox təqaüd verirdi. Meri Stüart Darem Universitetində ingilis dili və ədəbiyyatı müəllimi ixtisası üzrə təhsil almış və 1938-ci ildə Universitetin bakalavr dərəcəsini yüksək nəticələrlə, fərqlənmə diplomu ilə bitirmişdir. M.Stüart ixtisası üzrə təhsilini davam etdirərək 1941-ci ildə Darem Universitetinin

magistr dərəcəsini müvəffəqiyyətlə başa vurur. M.Stüart 1956-cı ilə qədər ingilis dili və ədəbiyyatı müəllimi işləyir.

Ruhani ailəsində böyüyən Stüart ciddi qaydalar və ənənələr çərçivəsində, milli və dini ruhda tərbiyə almışdı. 1945-ci ildə M.Stüart işdə geologiya professoru Frederik Henri Stüartla tanış olur. Həmkarlar arasında yaranan münasibətlər nəticəsində üç aydan sonra onlar ailə həyatı qururlar. Stüart ailə qurduqdan sonra bir neçə həftə ərzində hamiləlik zamanı qarın boşluğunun iltihabı xəstəliyindən əzab çəkdi. Peritonit xəstəliyi zamanı M.Stüart dünyaya uşaq gətirə bilmədi və uzun müddətdən sonra sonsuz olmasını qəbul etdi.

M.Stüart müəyyən müddətdən sonra ingilis ədəbiyyatı müəllimi kimi əvvəlki işinə qayıtdı, amma yazıb-yaratmağa çalışırdı, ilk oxucusu olan əri həmişə onu ruhlandırırdı. Yazıçının əri hər zaman həyat yoldaşının yaradıcılığı ilə yaxından maraqlanır və ona dayaq olur, Meriyə problemlərinin həll edilməsində, qarşılaşdığı çətinliklərin öhdəsindən gəlməkdə ona kömək edir, mənəvi dəstək olur. Bir neçə ildən sonra Frederikə Edinburqda iş təklif edirlər və bu səbəbdən Meri ilə Frederik işləmək və yaşamaq üçün Edinburqa köçmək qərarına gəlirlər. 1956-ci ildə onlar Edinburqa köçür və M.Stüartın əri Fredrik burada geologiya və mineralogiya sahəsi üzrə professor kimi məşhurlaşır, həmçinin Britaniyanın aparıcı alimlərindən birinə çevrilir. Stüart ədəbiyyata romantik triller müəllifi kimi başladı. Lakin bununla kifayətlənməyərək müxtəlif mövzulara müraciət etdi. 60-cı illərin sonu 70-cı illərin əvvəllində Meri Stüart kral Artur haqqında tarixi romanlar qələmə almağa başladı.

1968-ci ildə Meri Stüart Kral İncəsənət Cəmiyyətinin üzvlüyünə layiq görülür, onun yaradıcılıq irsi isə Şotlandiyanın Milli kitabxanasının bir hissəsi olur. Geologiya sahəsində mühüm nailiyyətlərə imza atan yazıçının əri Frederik Henri Stüart 1970-ci ildə London Geologiya Cəmiyyəti tərəfindən Layel medalı (Lyell Medal) ilə təltif olunur. 1974-cü ildə Stüartın həyat yoldaşı Fredrikə cəngavərlik titulu verilir. Merinin həyat yoldaşı ilə Avropadakı səyahətləri zamanı yaranan yeni təəssüratlar və emosiyalar ingilis yazıçını yeni romanlar yazmağa ilhamlandırır. 2001-ci ildə M.Stüartın əri Frederik vəfat edir. Meri və Frederik bir-birinə olduca sadiq və bağlı insanlar idi, Fredrik ölənə qədər onlar bir yerdə xoşbəxt yaşayıblar.

Meri Stüart müxtəlif janrlar üzrə, o cümlədən də detektiv, romantik saspens, tarixi romanlar yazaraq öz qələmini sınasa da, əsasən tarixi və fentezi janrında qələmə aldığı romanları ilə məşhurdur. Detektiv, tarixi və mistik romanların müəllifi kimi daha çox məşhur olan Meri Stüart müasir dövrdə ingilis ədəbiyyatının inkişafında əhəmiyyətli yerlərdən birini tutur. Meri Stüartın yaradıcılığında ağıllı və tədbirli qadın qəhrəmanlar tərənnüm edilir. Meri Stüartın yaratdığı qadın qəhrəmanlar təhlükəli hallardan çıxış yolu tapır, yaranmış bütün çıxılmaz və təhlükəli halların öhdəsindən uzaqgörənlik və müdrikliklə gəlməyə müvəffəq olurlar. Meri Stüart tarixi əsərlərlə yanaşı, həmçinin uşaq kitabları və poeziyası da qələmə almışdır. Amma 97 yaşında dünyasını dəyişmiş Meri Stüart ilk növbədə tarixi roman və fentezi janrı ilə tanınmışdır. 1954-cü illərdən gərgin şəkildə yaradıcılqla məşğul olan Meri Stüart tarixi roman və fentezi janrı ilə yanaşı detektiv, qotika və mistika janrında da bədii əsərlər yazmışdır. Meri Stüartın bədii və intellektual zəkasının məhsulu olan detektiv, romantik və tarixi romanlar yüksək oxucu kütləsinin zövqünü oxşamış və bu baxımdan da romanları

kitab halında çap olunduqdan sonra milyonlarla tirajı satılmışdır.

Meri Stüartın 1954-cü ildə "Hodder & Stoughton" nəşriyyatı tərəfindən nəşr olunan "Madam, Will You Talk?" ("Madam, siz danışacaqsınız?") adlı ilk kitabı detektiv janrında idi. Ümumiyyətlə, Merinin əsərlərinin əksəriyyəti məşhur "Hodder & Stoughton" nəşriyyatı tərəfindən çap olunmuşdur.

Sevgi romanı üslubunda yazılan "Madam, Will You Talk?"[303] əsərinin adı qədim ingilis xalq mahnısından götürülmüşdü. Əsərin qəhrəmanı Çariti Selborn Fransanın cənubuna avtomobildə səyahətə çıxır və səyahət əsnasında Şelli Devid adlı oğlan ilə tanış olur və bu tanışlıq onun bütün həyatını dəyişdirir.

Kəskin süjetli sevgi romanı olan "Wildfire at Midnight"[304] ("Gecəyarısı yanğını") əsəri ilk dəfə 1956-ci ildə dərc olunub. Londonda məşhur model kimi fəaliyyət göstərən Canetta Bruki şəhərin gərgin işindən və səs-küyündən uzaqlaşaraq istirahət etmək üçün Skay adasında yerləşən balaca otelə gəlir. Burada o qəflətən öz keçmiş əri Nikolas Druri ilə qarşılaşır. Oteldə anlaşılmaz şəkildə qətl törədilməsi bütün işləri bir-birinə qatır, bütün otel heyəti, qonaqlar bu müəmmalı hadisəyə çaşbaş qalırlar. Lakin Canetta Brukinin yeni tanış olduğu həmkarların əməkdaşı, otelə səyyah qismində gəlmiş Rodrik Qrant cinayətin üstünü açır.



Meri Stüartın detektiv, romantik saspens janrında yazdığı "Thunder on the Right" [305] ("Sağ tərəfdəki şimşək") əsəri 1957-ci ildə nəşr olunur. Meri Stüartın bir çox romanlarının qəhrəmanı kimi bu əsərin də qəhrəmanı qadındır. Əsərin qəhrəmanı Cennifer Silver öz xalası qızıyla Fransaya gəlir. Cennifer burada iki il əvvəl itgin düşən Stefen Meysfildlə qarşılaşır. Cenifer və Stefen özləri istəmədikləri halda qaçaqmalçıların qaranlıq dünyasına düşür, Cenifer və Stefen amansız sınaqlarla qarşılaşır. Bir çox tədqiqatçıların nöqteyi-nəzərincə Merinin detektiv, romantik saspens janrında yazdığı "Thunder on the Right" əsərini tədqiqatçılar ən romantik kitab adlandırır.

Yazıçının 1958-ci ildə qələmə aldığı "Nine coaches waiting" [306] ("Doqquz vaqon sizi gözləyir") əsəri də detektiv janrda yazılmış sevgi romanı idi. Əsərin qəhrəmanı olan gənc ingilis Linda Martin Fransaya səfərə çıxır və Fransanın ucqar kəndində mürəbbiyə işləmək qərarına gəlir. 23 yaşlı Linda Fransada qaldığı və tərbiyəçi kimi işlədiyi qəsrin sakinlərinin münasibətlərdə anlaşılmazlıq, laqeydlik, soyuqluq və gərginlik hiss edir. Linda burada hər iki valideynlərini avtomobil qəzasında itirmiş doqquz yaşlı Filliplə mürəbiyyə kimi davranmaqla kifayətlənmir və onunla dostluq edir. İsveçrənin Cenevrə şəhərində zəngin bir ailədə dünyaya göz açan Fillip burada qohumlarının himayəsində qalır. Qohumları Fillipə qarşı olduqca laqeyd münasibət bəsləyir. Fillipə 15 yaşınadək qəyyumluq etməyi öz üzərinə götürmüş Leon de Valminin də qardaşı oğluna göstərdiyi münasibət heç də ürəkaçan deyil. Leon de Valminin 30 yaşlı oğlu Raul de Valmi ilə tərbiyəçi Linda Martin arasında meydana gələn sevgi münasibətləri də romana yeni ab-hava bəxş edir. Əsərin geniş oxucu kütləsi

---

**303 Mary Stewart. The moonspinners; Nine coaches waiting; The ivy tree; Madame, will you talk? New York: Octopus Books/Heinemann, 1979, p.826**

**304 The spell of Mary Stewart; three complete books. Garden City, N.Y., N. Doubleday, 1968, p.714**

**305 Mary Stewart. Thunder on the Right. Greenwich, Conn. Fawcett Publications, 1957, p.200**

**306 Mary Stewart. The moonspinners; Nine coaches waiting; The ivy tree; Madame, will you talk? New York: Octopus Books/Heinemann, 1979, p.826**

tərəfindən rəğbətlə qarşılanması M.Stüartın xəfiyyə və sevgi mövzunda öz qələməni bir daha müvəffəqiyyətlə sınamasına bariz nümunədir.

M.Stüartın 1959-cu ildə yazıb bitirdiyi “My brother Michael” [307](“Mənim qardaşım Maykl”) adlı əsəri elə həmin ildə də nəşr olundu. Müəllif bu əsərə görə Böyük Britaniya Detektiv Yazıçılar Assosasiyası (“Crime Writers’ Association”) tərəfindən 1960-cı ildə “Qızıl xəncər” mükafatına layiq görülmüşdür. Onu da qeyd etmək yerinə düşərdi ki, Meri Stüartın 1965-ci ildə qələmə aldığı və elə həmin ildə nəşr olunan “Airs Above the Ground” (“Torpaq üzərində uçuşlar”) adlı əsəri də Britaniya Detektiv Yazıçılar Assosasiyası tərəfindən “Qızıl xəncər” mükafatına layiq görüldü.

Romantik saspens janrında qələmə alınmış “My brother Michael” əsərinin qəhrəmanı Kamilla Heyven məzuniyyət vaxtı Yunanıstana səfərə çıxır. Yolda o, gözlənilməz şəkildə Simon Lester adlı özünə yad olan bir insan ilə tanış olur. Simon İkinci Dünya Müharibəsi zamanı ölən qardaşı Maykl haqqında daha çox məlumat əldə etmək üçün Yunanıstana gəlib. Simonun qardaşı Maykl on dörd il bundan əvvəl Parnasda həlak olub, Simon qardaşının “ruhunu sakitləşdirmək” üçün bu qədim yunan xarabalığına gəlib. Simonla tanışlıqdan sonra Kamillanın əsrarəngiz yol macərası başlayır.

M.Stüartın “The Ivy Tree” (“Sarmaşıqla sarınmış ağac”) adlı növbəti əsəri 1961-ci ildə nəşr olundu. Meri Stüartın sayca altıncı romanı olan bu əsərdə də romantika və gərginlik birgə addımlayır. “The Ivy Tree” əsərinin baş qəhrəmanı Meri Qrey adlı cəsarətli, ağıllı və gənc qadındır. Kanadadan İngiltərəyə yeni gəlmiş Meri Qreyin zəngin malikanə sahibinin səkkiz il itmiş nəvəsinə bənzərliyi hadisələrin axarını dəyişir.

M.Stüartın 1962-ci ildə qələmə aldığı “The Moon-spinners” [308](“Ay-dönən adamlar”) əsəri 1964-cü ildə Amerikan rejissoru Ceyms Nilson tərəfindən lentə alınıb. Əsərin qəhrəmanı Nikola Ferris adlı gənc ingilis qızıdır. Nikola Böyük Britaniyanın Yunanıstanda yerləşən səfirliyində katibə olaraq çalışır və Afinada diplomatik, işgüzar fəaliyyətlə məşğuldur. Gənc Nikola məzuniyyət vaxtı istirahət etmək üçün Krit adasına gəlir. Krit adasında qaldığı mehmanxananın sahibinin soyuqqanlı davranışları diqqət çəkir, otel sahibinin bu laqeyd davranışının öhdəsindən gələn yeganə adam Nikkolanın qardaşı Stratos olur. O da bacısı kimi Londondan gəlmişdir. Çox keçmədən ortaya Mark adlı mülayim xasiyyətli və maraqlı bir ingilis çıxır və onunla dost olurlar. Lakin Ağ dağlarının ətəyində yerləşən kənd mehmanxanasında baş verən qətl hadisələrin axarını dəyişdirir. Bu gözlənilməz şəxs hadisəyə görə qətlin şahidi olan iki gənc polislər tərəfindən aparılır. Nikola cinayəti törədən qatilin mehmanxana sakinlərindən və yaxud da yerli sakinlərdən kimin olmasını aydınlaşdırmağa cəhd göstərir.

Meri Stüartın 1964-ci ildə nəşr olunan “This Rough Magic” [309](“Qorxulu sehir”) əsərinin adı Uilyam Şekspirin “Tufan” əsərindən götürülmüşdür. “This Rough Magic” əsəri 1965-ci ildə ən yaxşı roman kimi “Amerika detektiv yazıçıları” assosasiyası tərəfindən təqdim olunan Edqar Allan Po ədəbi mükafatına layiq görülmüşdür. Dedetkiv janrda yazılmış əsərdəki hadisələr Yunanıstanda baş verir. Romandakı intriqa Britaniyanın Yunanıstanda yerləşən səfirliyinin qulluqçuları ilə qaçaqmalçıların ara-



---

307 Mary Stewart. My brother Michael. Grolier, 1960, p.326
308 Mary Stewart. The moonspinners; Nine coaches waiting; The ivy tree; Madame, will you talk? New York: Octopus Books/Heinemann, 1979, p.826
309 The spell of Mary Stewart; three complete books. Garden City, N.Y., N. Doubleday, 1968, p.714

sında baş verir. Əsərin baş qəhrəmanı olan gənc aktrisa Lüsi Uorunq isti cənub dənizində yerləşən tənha adaya bacısının yanına qonaq gəlir və təsadüfən öyrənir ki, onun sevimli kumiri qonşuluqda yaşayır. Gözəl aktyor Culian Geyl iki il əvvəl naməlum səbəblərdən səhnəni tərk edib. Adadakı sakit həyat tərzi gözlənilmədən dəyişilir, bu rahat həyat qəfildən pozulur və bir-birinin ardınca dəhşətli hadisələr baş verir. Qorxu, təhlükə və ölüm detektiv və romantik saspens janrında qələmə alınmış əsərin əsas süjet xəttini təşkil edir.

Yazıçının "Airs above the Ground"[310] ("Yer üzərində uçuşlar") adlı növbəti əsəri 1965-ci ildə nəşr olunmuşdur. Müəllifin saspens janrında qələmə aldığı bu əsər də 1966-cı ildə Edqar Allan Po ədəbi mükafatı ilə təltif olunmuşdur. Əsərin adı hərbiçilər üçün at hazırlayan süvari təlim məktəbindən götürülmüşdür. Meri Stüartın digər əsərlərində olduğu kimi bu romanda da əsərin baş qəhrəmanı qadındır. Əsərin baş qəhrəmanı Vanessa Mart itkin düşmüş ərini axtarmaq üçün Avstriyanın paytaxtı Vyanaya yola düşür. İki il əvvəl ailə həyatı qurduğu onun ərinin axtarmaq üçün yola çıxan Vanessa Mart səfər əsnasında müxtəlif sərgüzəştlərlə qarşılaşır.



M.Stüartın romantik saspens mövusunda yazdığı "The Gabriel Hounds" ("Qabriel tazıları") adlı əsəri ilk dəfə 1967-ci ildə çap olunub. Əsərin qəhrəmanı Kristi Mansel İngiltərədən Livana və Suriyaya səyahətə çıxmışdır. Gənc yaşında olan ingilis gözlənilmədən Suriyanın paytaxtı Dəməşqdə əmisi oğlu Çarlz ilə qarşılaşır və bu qarşılaşmadan sonra əmioğluların möhtəşəm macərası başlayır.

Ümumiyyətlə, bu dövrdə Meri Stüartın yaradıcılığında detektiv janrı üstünlük təşkil edirdi. 1976-cı ildə yazdığı "Touch Not the Cat" ("Pişiyə toxunmayın") sevgi romanı da məhz detektiv janrındadır. İlk dəfə 1988-ci ildə nəşr olunan "Thornyhold" ("Tikanlı monastır") əsəri isə fentezi janrında qələmə alınmışdır. Ədibin "Stormy Petrel" ("Kiçik fırtınaquşu") adlı əsəri 1991-ci ildə nəşr olunmuşdur. 1997-ci ildə çap olunmuş "Rose Cottage" ("Qızılgül kotteci") əsərinin əsas mövzusu isə sevgidir.

XX əsrin 70-ci illərindən başlayaraq Meri Stüart kral Artur dövrü (Arthurian saga) haqqında silsilə tarixi romanlar yazmağa başlayır. Yazıçının bu qəbildən olan "The Crystal Cave"[311]("Büllur mağara") adlı əsəri 1970-ci ildə çap olunur. Mifoloji qəhrəmanların da əks olunduğu bu macəra romanında fentezi janrının xüsusiyyətləri də öz əksini tapmışdır. Əsərdəki hadisələr V əsrdə Britaniyada kral sarayında baş verir. Kral Artur dövrü əfsanələrinin əsas qəhrəmanlarıdan biri olan Merlin "The Crystal Cave" romanın baş qəhrəmanıdır. Əsər orta əsrlərdə Böyük Britaniyada meydana gəlmiş əfsanələr əsasında qələmə alınmışdır. "The Crystal Cave" romanına görə Meri Stüart 1971-ci ildə Mif-poetik fentezi mükafatı (Mythopoetic *Fantasy* Award) ilə təltif olunur.

Meri Stüartın qələmə aldığı məşhur "Merlin" trilogiyasının ikinci əsəri olan "The Hollow Hills" ("Dərə-təpələr") ilk dəfə 1973-ci ildə çap olunub. Bu kitab "The Crystal Cave" əsərinin davamı kimi nəzərdə tutulmuşdur. Əsər 1974-cü ildə müəllifin ikinci dəfə Mif-poetik fentezi mükafatını (Mythopoetic *Fantasy* Award) qazanmasına vəsilə olur. Əsərdə Merlinlə yanaşı kral Artur, Uter Pendraqon, İqrqina, Artur Pendraqon, Maqnus Maksimus, Ambrosius Avrelianus kimi yaddaqalan obrazlar vardır.

**310 Mary Stewart. Airs above the Ground. New York: HarperTorch, 2004, p.390**
**311 Mary Stewart. The Crystal Cave. Fawcett Columbine, 1983, p.548**

"Merlin" trilogiyasının sonuncu əsəri olan "The Last Enchantment"[312] ("Sonuncu sehrbazlıq") romanı 1979-cu ildə çap olundu. Əsərdə gənc Arturun Merlinin məsləhəti və köməkliyi sayəsində apardığı gərgin mübarizə öz əksini tapmışdır. Merlin artıq qocalmışdır, lakin buna baxmayaraq, o, Artura hər zaman olduğu kimi sadiq qalmışdır. Meri Stüartın bu romantik epopeyası əsasında 1991-ci ildə "Merlin of the crystal cave" ("Merlinin billur mağarası") adlı film də çəkilmişdir. Filmdə Merlinin uşaqlıq dövründən tutmuş yetkinlik və ahıl çağlarına qədər olan dövr Meri Stüartın "Merlin" trilogiyası əsasında lentə alınmışdır.

Meri Stüart "Merlin" trilogiyasını bitirdikdən sonra da bu əfsanəvi şəxs haqqıda əsər yazmağa davam edir. Yazıçının 1983-cü ildə çap olunmuş "The Wicked Day" ("Qəzəb günü") adlı əsərinin əsas mövzusu da kral Artur dövrünə həsr olunmuş əfsanələrindən götürülmüşdür. Merinin 1995-ci ildə çap etdirdiyi "The Prince and the Pilgrim" ("Şahzadə və zəvvar") adlı əsəri kral Artur dövrünə həsr olunmuş sonucu əsəridir. Ümumiyyətlə, Meri Stüartın Merlinin həyatına həsr etdiyi əsərlər "The Crystal Cave", "The Hollow Hills", "The Last Enchantment" trilogiya təşkil etdiyi halda, bu trilogiyaya "The Wicked Day" və "The Prince and the Pilgrim" adlı iki əsər də əlavə etdikdən sonra kral Artur dövrünə həsr edilən pentalogiya meydana çıxır. Bu əsərlərə görə Meri Stüart iki dəfə Mif-poetik fentezi mükafatına layiq görülmüşdür.



Meri Stüart uşaq yaradıcılığı sahəsində də öz qələmini sınamışdır. Ədibin bu sahəyə həsr etdiyi "The Little Broomstick" ("Kiçik süpürgə") əsəri 1971-ci ildə nəşr olunmuşdur. Yazıçının vəfatından sonra bu əsərə 2017-ci ildə "Meri və ifritənin gülləri" adı altında animasiyalı film çəkilmişdir. M.Stüartın 1974-cü ildə fentezi janrında qələmə aldığı "Ludo and the Star Horse" ("Ludo və Ulduz at") adlı povesti də uşaqlar üçün nəzərdə tutulmuşdu. M.Stüartın 1980-ci ildə yazdığı "A Walk in Wolf Wood" ("Canavar meşəsində gəzinti") adlı povesti də fentezi janrında idi.

M.Stüart poeziya janrına da müraciət edir və onun şeirlərinin toplandığı "Frost on the Window: And other Poems" ("Pəncərənin qabağındakı şaxta") adlı şeir kitabı 1990-cı ildə nəşr olunur. Meri Stüartın qələmə aldığı şeirlər toplusunda əfsanəvi cadugər Merlinə, heyvanlara, quşlara və digər mövzulara həsr olunmuş şeirlər öz əksini tapmışdır. Buradan da göründüyü kimi Merlin obrazı Meri Stüartın ən çox sevdiyi obrazlardan biri olmuşdur.

Meri Stüart 1996-cı ildə mistika janrındakı nailiyyətlərə görə Aqata mükafatının xüsusi laureatı kimi təltif olunur. 3 iyul 2009-cu ildə isə məzunu olduğu Darem Universiteti M.Stüarta Universitetin Fəxri doktoru diplomu təqdim edilir. Ömrünün son illərini Şotlandiyada yaşayan Meri Stüart 9 may 2014-cü ildə Arqayl-end-Byut əyalətinin Lox-O adlı yaşayış məskənində vəfat edir. İyirmidən artıq romanın müəllifi olan Meri Stüartı müasir dövrün ədəbiyyat tənqidçiləri Britaniya yaçılıarının ən yaxşı nümunələrindən biri hesab edirlər. M.Stüartın əsərləri müxtəlif dairələrinin və müxtəlif səviyyəli oxucuların zövqlərini oxşayır. Onun əsərləri misli görünməmiş tirajla satışa çıxırdı və həmişə bestsellerlər arasında özünəməxsus yer tuturdu.

312 Mary Stewart. The Last Enchantment, New York: Fawcett Crest, 1984, p.488